# Rafiq ODAY-65



Hörmətli Rafiq müəllim!

Sizi - Azərbaycan Jurnalistlər Birliyi Sumqayıt şəhər təşkilatının sədri, əməkdar jurnalisti, şair-publisisti 65 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz, 1960-cı ildə Naxçıvan MR Şərur rayonunun Şəhriyar kəndində dünyaya göz açmısınız. 8-ci sinfi Şəhriyar kəndində, orta məktəbi isə Yengicə kəndində bitirmisiniz. 1983-1988-ci illərdə Naxçıvan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almısınız. İlk mətbu şeiriniz 1983-cü ildə "Şərq qapısı" (Sovet Naxçıvanı) qəzetində işıq üzü görüb.

1997-ci ildən Sumqayıt şəhərində yaşayırsınız. Elə həmin il Sumqayıtda fəaliyyət göstərən "Cırtdan" uşaq kinoteatrının direktoru təyin edilmisiniz. Eyni zamanda "Dünyanın səsi" qəzetində redaktor kimi fəaliyyətinizi davam etdirmisiniz. "Gəncliyin səsi" qəzetində məsul katib, "Dəlidağ" qəzetində baş redaktor işləmisiniz. 2003-cü ildə Azərbaycan Jurnalistlər Birliyi Sumqayıt təşkilatının sədri seçilmisiniz. 2005-ci ildən 2008-ci ilə qədər "Şaman" ictimai- siyasi, ədəbi-bədii qəzetinin təsisçisi və baş redaktoru, 2008-ci ildən bu günə qədər "Möhtəşəm Azərbaycan" ictimai-siyasi, ədəbi-bədii qəzetinin təsisçisi və baş redaktorusunuz, eyni zamanda 2008-ci ildən 2010-cu ilə kimi "Azərkimya" Dövlət Şirkətinin mətbu orqanı olan "Azərbaycan kimyaçısı" qəzetinin baş redaktoru işləmisiniz. Respublika Prezidentinin müvafiq sərəncamı ilə "Azərkimya" Dövlət Şirkəti SOCAR-ın tabeçiliyinə verildikdən sonra, siz, 2010-cu ildən fəaliyyətinizi "Azərkimya" İstehsalat Birliyinin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsində davam etdirmisiniz.

Sizin "Bir yol başlamışam" adlı ilk şeirlər kitabınız 29 yaşında dövlət planına salınaraq, "Müəllifin ilk kitabı" seriyasından "Yazıçı" nəşriyyatında çap olunub. Siz "Gecələr içimə göyüzü yağar", "Ömür gedir öz köçündə", "Şərur folkloru - Rafiq Odayın təqdimatında", "Qarabağ şikəstəsi", "Xatirələr işığında", "3 Aprel günəşi" (Ulu öndər Heydər Əliyevin Sumqayıtda keçirdiyi növbədənkənar müşavirəyə həsr olunub), "Əlli min də qayğısı var əllimin", "Ədəbi-tənqidi məqalələr", "Həyatın yaşama düsturu", "Qərib ruhların nəğməsi", "Həzin xatirələr işığında", "Ağrıların simfoniyası", "Tanrının yer üzündəki mələyi" və "Ruhum göylər əmanəti" kitablarının müəllifi, 1000-dən artıq kitabın naşiri, 500-dən çox kitabın redaktoru, 200-dən artıq ədəbi-tənqidi və elmi, minlərlə publisistik məqalənin müəllifisiniz. "Həsən bəy Zərdabi", "Qafqaz - Media", "Qızıl qələm", "Ustad jurnalist" və onlarca digər media mükafatları laureatısınız.

Sizin Ulu öndər Heydər Əliyevə həsr olunmuş "Sən ulu öndərisən bu xalqın, bu millətin və Prezident İlham Əliyevə həsr olunmuş "Ali Baş Komandanım" şeirləriniz televiziyada, radioda, müxtəlif tədbirlərdə səsləndirilib və ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib. Sizin Qarabağ müharibəsindəki tarixi zəfərimizə həsr etdiyiniz "Xarıbülbül" və "Zəfər kantatası" adlı sonetlər çələnginiz də oxucular tərəfindən maraqla qarşılanıb.

Siz, Sumqayıt şəhərinin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edirsiniz. Prezident seçkilərində, Milli Məclisə seçkilərdə, Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı ümumxalq səsverməsində (referendium) vəkil kimi və təşviqat qrupunun üzvü olaraq geniş fəaliyyət göstərirsiniz.

Hal-hazırda Sumqayıt şəhər İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvüsünüz. 2014-cü ildə Sumqayıt şəhərinin 65 illiyi münasibətilə şəhərin sosial-iqtisadi inkişafındakı xidmətlərinizə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Əməkdar Jurnalist" fəxri adına layiq görülmüsünüz.

Hörmətli Rafiq müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**